# UĞUR OLSUN



Günay Həmid

Təqribən iki ay bundan öncə onun barəsində eşitdim. Ailədə sözarası bildirdilər ki, bir istedadlı qız var. Tələbədi, şeirlər yazır. Amma məsləhətə ehtiyac duyur. Onun şeirləri ilə tanış olarsan

Təbii ki, mən də razılıq verdim. Və günlərin birində redaksiyamızdakı iş otağının qapısı döyüldü. Yaxın qohumu ilə birlikdə gəlmişdi. Utana-utana şeirləri mənə uzatdı. Elə yanındaca oxumağa başladım. Tam səmimi etiraf edim ki, bu qızın şeirlərində işıq var idi. Fikirlərində pərakəndəlik olsa da, işıq hakim idi onun şeirlərinə. Üstəlik, onun aid olduğu bölgənin, yəni Füzulinin işğal altında olması o acıları onun uşaqlıq, gənclik həyatına təsiri də onun şeirlərində öz izini açmışdı. Mən hər iki məqamın ən qabarıq tərəfi olan səmimiyyəti və işığı Günayın şeirlərində gördüyümdən onun bir neçəsini seçdim və istədim ki, siz də onu tanıyasınız, oxuyasınız. Mən Günayın nə vaxtsa məhşur bir şair olacağını iddia etmirəm. Amma tam əminəm ki, o sözü, fikri özünəməxsus şəkildə şeirə çevirməyin yolundadı. Bu yoda mən də ona uğur diləyirəm.

**Əbülfət Mədətoğlu**

***

Babanın, nənənin
olduğu evdən
gələn
muğam kimi
səsi gəlir
ürəyimdən.
Dinləyirəm,
kəndə gedən yollarda
dinlədiyim mahnı kimi...
Nə gözəl səsi varmış
ürəyimin ,
Səndən deyir,
Sən deyir...
Gün vurduqca bu yollara
yollar məndən
su dilənir.
Gözlərim də
yol çəkməkdən
bezib deyə
damla-damla
su çiləyir.
Mən gedirəm bu şəhərdən
Nə yüküm var, nə dərdim.
Bəlkə səndən uzaq duram,
unudam...
Ötürdükcə
yolları,
ağacları,
daşları
baxıram uzaqlara...
Nə qoydum ki geridə ?
Dağlar mənlə bir gedir.
Gülümsəyir günəş yaman
Ay dövrə vurub
dörd yanıma
işıq salır yollarıma
izləyir sanki məni.
Dərdlər məndə gedir dağ.
Mən görmürəm günəşi,
O deyəsən ağlayır,
Günəşin həsrətiylə
Ay gecədə
qalanır.
Ümid məndə yük qalıb.
Sevgi yaman inadlaşıb
ürəyimdə
yurd salıb...

## *Ataya etiraf*

Nazlanıb ərk ilə böyüyən qızın
ən gözəl nəğməni söyləyən qızın
bir eşqin toruna düşübdür ,ata
səndən özgəsini sevməyən qızın.

bir sevgi yolunda qalıb dayandı
bir odu qəlbinə salıb da yandı.
Kabuslar içində yatıb oyandı
Laylayla yuxuya gedən o qızın

Ağ atlı oğlanı yalana döndü
Ümidi təzəcə yananda söndü.
Sayrışıb yerlərə səmadan endi
Adında göylərdən enməyən qızın.

***

Düşmüşəm quyu dibinə
nə yol tapa bilirəm
nə işıq...
Gözlərim üsyan edir
göz yaşıma...
Ümidlərim də
qurban gedib bir-birinə.
son ümidim
elə gözlərimdən axan
son damlada
tapşırdı canını...
Ürək saldı məni
bu quyuya...
bura çox qaranlıq
səssiz və tənha...
çətin kimsə
səsimi duya...
İndi gözlərin yadıma
düşəndə mənim ,
gözlərimdə çaxan ildırım
düşür ürəyimə
yandırır məni...
Alışır sinəmdə
Tüstüsüz ürək
Axı bu əzab
nəyimə gərək ???
Hayqırsam dünyaya
Quyu dibindən,
desəm,
Bu sevgiyə
əsir olmuşam,
dustaq olmuşam.
Onda mənə bir çarə deyin,
məni bu sevgidən
azad eyləyin!

ədalət.-2016.-22 noyabr.-S.4.